UOT 94(479.24)

CAHANGİR MƏMMƏDOV
Bakı Dövlət Universitetinin professoru,
Jurnalistika fakültəsi
TarixVeOnunProblemleri@gmail.com

MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATINDA XALQIN TARİXİ KEÇMİŞİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/84-92

Məqalədə Azərbaycan ədəbiyyatının inkişafında xüsusi mərhələ təşkil edən 1960-1990-cı illər dövründəki nəsrimizin nümunələri təhlilə cəlb edilir. Məqalənin əsas aparıcı mövzusunu xalqımızın tarixi keçmişinə dair ustad yazıçılarımızın əsərləri təşkil edir. Bu mövzu ilə bağlı bədii əsərlərin təhlilləri dünya nəsr nümunələrinə müraciətlə aparılır. Xüsusilə keçən əsrin ikinci yarısında Azərbaycanda meydana çıxan yeni ədəbi cərəyanın yaradıcılarının tarixi mövzuda əsərləri keçmiş Sovet İttifaqı respublikalarındakı yazıçıların əsərləri fonunda təhlil edilir. Azərbaycan ədəbiyyatının XIX əsrin birinci yarısında yazıb-yaratmış M.F.Axundzadə, Y.V.Çəmənzəminli, M.S.Ordubadi kimi yazıçılarına məxsus ədəbi məktəblərin altmışıncılar nəsli tərəfindən formalaşan yeni inkişaf mərhələsinə dair nümunələr məqalənin əsasını təşkil edir.

Açar sözlər: tarixi keçmiş, bədii əsər, janr, nəsr, altmışıncılar, yazıçı, əsər, yaradıcılıq, mövzu, ədəbiyyat, inkişaf, roman, tarix.

Giriş. 1960-1990-cı illər Azərbaycan nəsri tarixə daha çox müraciət etmişdir. Elə buradaca qeyd edək ki, həmin dövrdə nəsrin tarixə üz tutan janrları sırasında romanın məhsuldarlığı heyrətamiz dərəcədə çoxdur. Bunu bir neçə faktorla izah etmək olar. Əvvəla, Azərbaycan romanının tarixi mövzuya marağı təxminən nəsrimizdə bu janrın yaranması ilə eyni vaxta düşür. Yəni bu sahədə ənənə çox güclüdür. Dünya ədəbiyyatında isə bu ənənənin tarixi daha qədimdir. İngilis yazıçısı Valter Skottun (1771-1832) Rusiyada A.Puşkinin (1799-1837) romanları tarixi romanın yeni yöndə inkişafına təkan vermişdir. Buna qədər isə "tarixi romanlar, əsasən, didaktik-əxlaqi mahiyyət daşımış və bu əsərlərdə tarixi roman üçün vacib şərt hesab edilən tarixilik prinsipi gözlənilməmişdir". Dünya ədəbi təcrübəsinin son iki əsrində tarixi mövzuya müraciət daha da güclənmiş və bədii sözdə tarixilik prinsipini gözləməmək, az qala, qəbahət sayılmışdır.

Tarixi əsər - hansı janrda olursa-olsun - müraciət etdiyi tarixi dövrün portretini yaratmaqla əsərin meydana çıxdığı dövrdə onun vaciblilik dərəcəsi ilə şərtlənməlidir. "Müasir dövrümüzdə bəzən keçmişimizdən yazılan hər cür əsəri tarixi roman janrına aid etmək meyli var". Əgər əsərdə hər hansı dövrün konkret hadisələri, faktları fonunda bu dövrün tarixi portreti, ictimai-siyasi xarakteristikası yoxdursa, belə əsəri tarixi hesab etmək düzgün olmaz. Tarixi əsərin ən vacib atributlarından biri həmin əsərdə həqiqi tarixi faktlar və şəxsiyyətlərin, tarixi hadisələrin iştirakı, bu fakt, şəxsiyyət və hadisələrin həmin dövrdəki yerinin dəqiq təsvirindən ibarətdir.

Keçmiş Sovet İttifaqında yazıb-yaradan sənətkarların əksəriyyəti tarixi faktlara müraciət prosesində çox zaman bu tarixin vulqar tarixçilər tərəfindən saxtalaşdırılmış faktları ilə qarşılaşmış və öz əsərlərində, təbii ki, saxtalığa da yol vermişlər.

Biz sovet ədəbiyyatı dövründə tarixi mövzuda əsərlərdə iki mühüm faktla qarşılaşırıq:

1. Yazıçı özü tarixi faktlara bələd deyil, bu faktların düzgün olub-olmaması barədə şübhələrində tarixçiyə, elmi mətnlərə etibar edir.
2. Sənətkar özü tarixi öyrənir, onu yaşayıb və öz ideyaları zəminində bu tarixi bədii sözə gətirir.

Birincilər öz etimadlarında çox yanılıblar. Çünki sovet tarixçilərinin çox böyük bir qismi tarixin elmi mətnindən çox, ideoloji mətnini yaradıblar. Marietta Şaginyan kimi bir "Leniniana" müəllifinin faktlarına söykənməklə yazıçı saxta da əsər yarada bilərdi. Leninin saxta bioqrafiyasını yaradıb onu kütlə şüurunda mifə çevirməyi qarşısına məqsəd qoyan M.Şaginyan "Leniniana"sında bu gün həqiqi simasını gördüyümüz "rəhbərin" anadan olduğu vaxtdan ölən gününədək olan həyatının təhrif

edilmiş xronikasını romana çevirmişdir. V.İ.Leninin indiyədək altı dəfə çap olunmuş 88 çap vərəqi həcmində bioqrafiyası da tarixin saxtalaşdırılması ilə yadda qalır". Bu faktlar ətrafında yazılan əsərlər isə "vətənpərvərlik tərbiyəsində, sovet xalqlarının qardaşlıq ruhunda böyüməsinə "kömək edirdi". Lakin bu cür tərbiyənin özünün də saxta olduğu son illər bütün gücü ilə üzə çıxdı.

Ədəbi tənqid də uzun müddət belə əsərlərin təbliği ilə bədii söz sənətinin ideologiyaya xidmətini təqdir etmişdir. Lap son dövrlərdə də "dünya proletariatının maraqlı və mürəkkəb obrazını yaratmağı" tənqid vacib vəzifələrdən saymışdır. Azərbaycan ədəbiyyatşünaslığında "müsavat tarixçilərinin tariximizi saxtalaşdırması" ucbatından yazıçılarımızın saxta tarixlə qarşılaşmasına təəssüf hissi də güclüdür". Azərbaycan tarixinin əsl həqiqətini üzə çıxaran alimlərin faktlarına nəinki etinasızlıq olub, habelə onlara "burjua alimi" damğası vurmaqla özümüzə zərbə endirmişik.

Tarixi mövzuda nəsrimizin araşdırıcılarından birinin Azərbaycan yazıçılarının tarixi faktlarda çətinliyini "burjua alimlərinin bu tarixi saxtalaşdırmaları ilə" əsaslandırması həmin tendensiyanın məhsuludur.

İkinci qism yazıçılar əsl tarixi nəsrin müəlliflərıdir. Yusif Vəzir Çəmənzəminli, M.S.Ordubadi kimi böyük sənətkarlar ən qatı ideoloji təqiblər dövründə belə tarixə öz baxışlarını, obyektiv baxışlarını ifadə etməkdən çəkinməmişlər.

Əslində 30-cu illər Azərbaycan ədəbi tənqidinin M.Arif, M.Cəlal, M.Hüseyn, Ə.Hüseynzadə və s. kimi nümayəndələri M.S.Ordubadinin, Y.V.Çəmənzəminlinin tarixi romanlarını müzakirə dövründə söylədikləri fikirlər bu mövzuda nəsrimizin gələcək obyektiv inkişafına təkan ola bilərdi. Lakin 30-cu illərin ikinci yarısından başlayan geniş miqyaslı repressiya çox ideyaları ideologiyaya qurban verməyə məcbur etdi və Azərbaycan tarixi nəsrində saxtalığa yol açdı. Belə bir fikir həqiqətdən tamam uzaqdır ki, "otuzuncu illərin əvvəllərindən başlayaraq, Azərbaycan ədəbiyyatşünasları... sənətkardan qələmə aldığı dövrü dərindən və ətraflı öyrənməklə tarixi həqiqətə sədaqət tələb etmiş, eyni zamanda yazıçının sadəcə "tarixin katibinə" çevrilməsinə qarşı çıxaraq, sənətkar təxəyyülünün əhəmiyyətini yüksək qiymətləndirmişdir. Bu fikirdə həqiqət olmayan orasıdır ki, deyilənlər hamısı sözdə idi. Tarixi həqiqəti ideoloji istiqamətə çevirməyən sənət nümunəsi dərhal ədəbi tənqidin hədəfinə çevrilirdi. Buna görə idi ki, hətta S.Vurğun kimi sənətkar "Vaqif"də İbrahim xanı tarixi həqiqətdən uzaqlaşdırıb ideoloji istiqamətə salmışdı.

Biz bu böyük əsərdə İbrahim xan obrazındakı xarakter təhrifini nəzərdə tuturuq. Mirzə Calal Cavanşiri özünün "Qarabağ tarixi" kitabında yazır: "İbrahim xan qərib sevən, qonaqpərəst, yetimlərə baxan, rəiyyətpərvər, qeyrətli, ürəkli, çörəkli, ehsan sahibi və ənam paylayan bir adam idi". T.Hüseynovun qeyd etdiyi kimi, Y.V.Çəmənzəminli öz romanında İbrahim xanı "bu şəxsi və fərdi keyfiyyətləri ilə canlandırmışdır".

"Tarixi mövzuda əsər yazmaq, şübhəsiz ki, çətin və məsuliyyətlidir. Qələm sahibindən yazıçı istedadı ilə yanaşı, tədqiqatçılıq istedadı da tələb edir. Bu iki cəhət birləşib öz bədii həllini tapanda uğurlu çıxır". Professor Q.Xəlilovun bu dəqiq fikrinə onu da əlavə edək ki, tarixi mövzuda əsər həm də konkret ideologiyaya, hakim ideologiyaya deyil, tarixə və sənətə xidmət edəndə məqsədə nail olur.

1950-ci illərin ikinci yarısından başlayan demokratik hərəkat SSRİ-də tarixi mövzulara yeni baxış təfəkküründün formalaşmasında güclü rol oynadı. Bundan sonrakı dövrün məhsulu kimi bir çox tarixi roman və povestlər ortaya çıxdı. V.Şukşinin Stepan Razinə həsr etdiyi "Mən sizə azadlıq verməyə gəlmişəm" romanı öz həqiqəti ilə bundan əvvəl A.Çaplıkinin, S.Zlobinin eyni mövzuya, lakin ideoloji kanonlarla qələmə alınmış romanlarına qarşı çıxdı. Şukşin üçün Razin xalq qəhrəmanıdır. Bu insan xalq üçün yanan, onun azadlığı üçün ölümə hazır olan bir obraz kimi təsvir edilir. Müəllif tarixi şəxsiyyətlərin təsvirində çox zaman yol verilən təhrifləri dəf edərək Razin dövrü Rusiyasının siyasi portretini yaradır. Bu roman özündən sonra yeni obyektiv əsərlərə geniş yol açdı. Hətta, indiyədək tarixi mövzuda ayrıca meydan oxuyan roman öz yerini povestə verməyə başladı. Rus nəsrində tarixi mövzuda povestin 50-ci illərindən aldığı başlanğıc daha da gücləndi. Bəzi tədqiqatçılar nəsrin tarixi mövzuya bu cür müraciətini "kommunizm cəmiyyəti qurmaqda olan xalqın öz keçmişini öyrənməklə bu cəmiyyətin başa çatmasını sürətləndirmək məqsədi güddüyünü" iddia edirdilər. Lakin məsələ tamamilə başqa cürdür. 1950-ci illərin ikinci yarısından SSRİ-də başlayan demokratik hərəkat xalqların özünə qayıdış prosesini də gücləndirdi və imperiya şəraitində yaşayan xalqlarda yenidən özünə

tapınmaq ümidi artdı. Bir tərəfdən "yeni formalaşan SSRİ xalqlarının birliyini ifadə edən "sovet xalqı" anlayışının getdikcə bərqərar olması", digər tərəfdən milli özünüdərkin qüvvətlənməsi prosesi – bunlar paralel xətt kimi gedirdi. "Sovet xalqı" anlayışı rəsmi ideologiyanın uydurması idisə, milli özünüdərk prosesi xalqın özündə, sənət nümunələrində özünü göstərirdi. O cümlədən Rusiyanın özündə də, həmişə olduğu kimi imperiya ambisiyasına qarşı çıxan, milli özünəməxsusluğa qayıtmağı təbliğ edən qüvvələr də az deyildi. N.Rılenkov 60-cı illər rus yazıçılarının fikrini özündə belə ifadə edirdi: "Mənim doğma torpağımda üç doğma mövzum var ki, bütün ömrüm boyu onlara sadiqəm: Bunlar - rus təbiəti, rus tarixi, rus incəsənəti mövzularıdır". N.Rılenkovun "Uşaqlıq nağıllarım" (1962), "Mənim on dörd yaşım var" (1965), M. Alekseyevin, S. Krutilinin, Y. Doroşun, Y. Dombravskinin və onlarca digər nasirin tarixi mövzuda povestləri bundan əvvəlki rus sovet tarixi povestlərindən obyektə, hadisələrə, tarixi həqiqətə sədaqəti baxımından fərqlənirdi.

60-cı illər rus tarixi povestləri iki istiqamətdə inkişaf edirdi:

1. Rusiyanın qədimlik, özgünlük tarixinə, xalqın Rusiyanı azad görmək üçün apardığı mübarizənin tarixinə dair povestlər;
2. Sovet hakimiyyəti uğrunda, Böyük Vətən müharibəsi ilə bağlı hadisələrin təsvirini verən povestlər.

Birinci tərəfin müəlliflərinin məqsədi aydın idi: Rusiyanın ideologiyadan uzaq obyektiv tarixini bədii sözə gətirmək. İkincilərdə isə kommunist ideologiyasına xidmətin təsirini hər an duymaq mümkündür. Xalqın özünüdərkinə, öz kökünü duymasına, imperiya ambisiyasından əl çəkməsinə çağırışa kömək edirdilər. Q.Markovun "Sibir" (1969-1973), V.Smirnovun "On yeddinin baharı" (1968), S.Zalıginin "Solyonıy pad" (1968) povestlərindən fərqli olaraq V. Şukşin, V. Pikul kimi sənətkarlar xalqı özü olmağa, xalqları istismardan çəkinib öz iqtisadiyyatını, tarixini, mədəniyyətini yaratmağa səsləyən povestlər yaradırdılar. Çox təəssüf ki, 1960-1970-ci illər rus tarixi povestlərini tədqiq edən V.İ.Protçenko öz müşahidələrində rus yazıçılarının oktyabra və V.İ.Leninə həsr etdikləri nəsrdən başqa mövzu görə bilməmişdir. Halbuki rus nəsrinin 1960-70-ci illər kontekstində çox maraqlı tarixi povestlər vardır.

Sənətkarın özü tərəfindən tarixi və tarixi həqiqətin dərk edilməsi prosesi getmədən tarixi mövzuya girişmək səmərə vermir. Məsələn Y.V.Çəmənzəminlinin təcrübəsi göstərir ki, tənqidçi V.Novikov demişkən, "İki od içində"nin müəllifi mövzu ilə əlaqədar dövrü və mənbələri dərindən öyrənmiş, ona görə də fakt və material bolluğu içərisində sərbəst hərəkət etmək imkanına malik olmuşdur. Azərbaycan nəsrinin bugünkü mənzərəsində Ə.Cəfərzadənin Xətai və onun dövrü ilə bağlı, Şirvani və onun mühiti ilə bağlı nəsrində yarımçıqlıq hiss edirik. Bu əsərlərdə ("Aləmdə səsim var" və "Bakı-1501") yazıçı təsvir etdiyi tarixi dövrün koloritini, siyasi ictimai portretini daha çox dil faktları ilə yaratmağı üstün tutub. Görünür ona görə ki, həmin dövrün sırf tarixi faktlarına girişmək xüsusi çətinlik törədib. Yaxud, yazıçı tarixi faktlara bələddir, lakin bu faktların bədii təsvirində zəiflik göstərib tarixin "katibinə" çevrilir. M.İsmayılovun "Xaqani" əsərində bu faktla qarşılaşırıq. "Əgər tarixi dərindən dərk etmək və bu dərketməni ifadə etmək üçün istedad yoxdursa, tarixi əsər səmərəsiz olacaq". Keçmiş gələcək qədər vacib obyektdir və bunların hər ikisi sənətkar üçün eyni dərəcədə maraqlıdır. Müasir nəsrin tarixi keçmişə məsuldar marağı ədəbiyyatımızın yeni məzmun və forma ilə zənginləşməsinə də xidmət edir. Bu mövzu özündə xalq və şəxsiyyət, xalq və tarix, milli inkişaf, xalqın kökü və təkamül yolları, sənətkar və tarixi yaddaş kimi prinsipial məsələləri birləşdirir. Bütün bunlar isə roman, poema, povest, hekayə kimi epik əsərləri tədqiqat obyektinə çevirir. Xalqın tarixində elə qlobal hadisələr olur ki, həmin hadisələrdən yan keçmək mümkün deyil. Həm də bu hadisələr bəzən həmin dövrün ictimai-siyasi ab-havası ilə də qeyb olub gedir. Onları yaşatmaq, gələcək nəslə çatdırmaq işində sənətin də üzərinə böyük vəzifələr düşür.

Bizdə bu gün Oktyabr inqilabının, Böyük Vətən müharibəsinin əsl simasını, mahiyyətini açan faktlar çoxdur və bu faktlar həmin hadisələrə obyektiv baxmaq imkanı yaradır. Lakin vaxtı ilə həmin hadisələrə sırf ideoloji baxışın yaratdığı şəraiti və bu şəraitin doğurduğu ağlı-qaralı sənət dünyasının bütün bədii faktlarını da inkar etmək olmaz. Bu, mədəniyyət tariximizin çox böyük bir hissəsindən imtina demək olardı. Məsələn, 1920-ci ilin aprelində Azərbaycanda baş verən çevriliş, rus-alman müharibəsində (1941-1945) Azərbaycanın iştirakı, kollektivləşmə və s. hadisələrə həsr olunmuş əsərlərdən sərf-nəzər etmək, ideoloji xidmətinə görə onları təhlildən kənara qoymaq ən azı tədqiqat konsep-

siyasının yarımçıqlığına gətirib çıxara bilər. Həmin tarixi dövrlərin tarixi hadisələri bədii sözün də faktına çevrilib və bu gün həmin ədəbi prosesin istiqamətlərini, ağlıq və qaralıq səbəblərini, ideoloji və sənət köklərini açmaq vacib vəzifələrdən biri kimi ədəbiyyatşünaslığımızın qarşısında durur.

"...Cəmiyyətimizin keçmiş olduğu inkişaf mərhələlərini müasir məlumatımız əsasında, getdikcə genişlənən təsəvvürlərimiz işığında dərk etməyə səy göstərmək hazırda nəsrimizdə aparıcı meyllərdəndir. Və...bu əsərlərin uğurunu təmin edən əsas amil də tarixi düşüncəmizin dərinliyindən, dövrün həqiqətini, mənzərəsini daha obyektiv canlandırmaqdan ziddiyyətlərinə, mürəkkəbliyinə daha artıq həssaslıqla nüfuz etmək bacarığımızdan asılıdır". 60-90-cı illər nəsrimiz özündən əvvəlki sələflərindən fərqli olaraq, tarixə obyektiv sənətkar baxışını gücləndirdi. S.Rəhimovun "Şamo"da təsvir etdiyi bədii tarixi surətlər və tarixi hadisələr, deyək ki, İ.Əfəndiyevin "Geriyə baxma, qoca!" romanında konkretləşdi, tarixi faktlara çevrildi. Əvvəlki əsərlərində "şərti elementlər, romantik qavrayışların" çoxluğundan gileyləri eşidilən İ.Əfəndiyev 70-ci illər yaradıcılığında tarixi həqiqətə daha çox yer verdi.

Tarixi keçmişimizlə bağlı nəsrdən söhbət gedəndə İ.Əfəndiyev yaradıcılığına nəzər salmadan keçmək mümkün deyil. Bu nəsrin üzərində xüsusi dayanmağa böyük ehtiyac hiss olunur.

Xalqın maraqlı tarixi keçmişinə sənətkar qayıdışı ədəbi-estetik və psixoloji baxımdan olduqca maraqlıdır. Xalqın keçmiş qəhrəmanlıq günlərinin unudulmaz səhifələri bugünkü nəslə sənətkar idealının çatdırılması, yazıçı amalının çatdırılması üçün geniş imkanlar yaradan üsullardan biridir. Yazıçı öz xalqının tarixi keçmişindəki mübarizə, qəhrəmanlıq momentləri ilə öyünməyə özünü haqlı hesab etdiyi zaman, tarixilikdə müasirlik nöqtələri tapdığı, bunu oxucu ilə bölüşməyə ehtiyac duyduğu zaman bu keçmişə qayıdır. Sənətkar keçmişlə bu günün və sabahın insanı üçün əzəli və əbədi olan fikir və arzulardan, ideal və qayədən, həmişəcavan hiss və duyğulardan söhbət açır. Keçmişə qayıtmaq, xalqın tarixinin ayrı-ayrı səhifələrini sənətkar prizmasından keçirib müasirlərimizə yetirmək sənətkardan tarixi, xalqı, nəsilləri, dünyanı bütöv şəkildə görə bilmək qabiliyyəti tələb edir. 20-50-ci illərin D.Furmanov, M.Şoloxov, Y.Tınyanov, A.Tolstoy, Y.V. Çəmənzəminli, M.Ordubadi kimi böyük sənətkarlarının tarixi mövzulara tez-tez müraciət etmələri, hər şeydən əvvəl, onların vətəndaşlıq, yaşadığı Vətənin dünənini və bu gününü öyrənmək keyfiyyəti ilə izah olunmalıdır. Və bu günümüzün V.Pikul, P.Zagrebelnı, Y.Trifonov, T.Pulatov, İ.Əfəndiyev, İ.Hüseynov kimi müasirliklə son dərəcə bağlı sənətkarlarının tarixiliyə meylinin köklərini də burada axtarmaq lazımdır. "Evdəyişmə" (Обмен), "İlkin nəticələr" (Предварительные итоги), "Təşnəliyin söndürülməsi" (Утоление жажды) kimi əsərlərində bu günümüzlə yaşayan usta sənətkar kimi tanıdığımız Y. Trifonov birdən-birə "Səbir kasası dolanda" (Нетерпение) kimi tarixi mövzuda bitkin roman yazdı. İnqilabi keçmişin mübarizələrlə dolu illərinin, inqilabçı xalqın ideallarının, inqilabçı qəhrəmanlığın doğurduğu hisslər Trifonovu belə bir mövzuya qayıtmağa məcbur etdi. Eləcə də Azərbaycan ədəbiyyatında "Söyüdlü arx", "Dağlar arxasında üç dost", "Körpüsalanlar" və bir çox başqa yaddaqalan əsərləri ilə müasirlərimizi düşündürən ən canlı, həyati problemlər qaldıran, elə ona görə də hər əsəri geniş müzakirə və mübahisəyə səbəb olan yazıçı İ.Əfəndiyevin 1970-ci illərdə birdən-birə tarixi mövzulara qayıtması xüsusi maraq doğurur.

Sənətkar özünün elə bir çağına gəlib çıxır ki, o öz ömrünə yenidən baxır, bu ömrün alaqaranlıq yolunda süzülüb gedən işığı çox aydın görür, öz ömrünü xalqın ömrünün fonunda qələmə alır. Yetkinlik, müdriklik çağının uşaqlığa qayıtmağı, xatirə-xatirə vərəqlənməyi gözümüz önündə geniş, təbii, dolğun, ibrətli bir mənzərə yaradır. Bir ömrün mənzərəsini.

Dünya ədəbiyyatının təcrübəsi bir daha göstərir ki, tarixi mövzunun inkişafında tarixi roman janrı əsas rol oynayır. Çünki müəyyən bir epoxal dövrün dəqiq və təmkinli təsvirində genişlik, panoramlıq, əhatəlik imkanına malik olan roman janrı daha əlverişlidir. Lakin romanın bu imkanlılığı heç də povesti kölgədə qoymur. Xüsusilə əsər bir ömrün pritçalarına söykənəndə.

V.Astafyevin "Son təzim" ("Последний поклон") povesti, dünya ədəbiyyatının bəzi nümunələri belə bir forma-strukturunda mövcudluğunu təsdiq edir. Aytmatovun "Əsrdən uzun gün" ("И дольше века длится день") adlı romanında Boranlı Yedigeyın həyatı ilə bağlı hadisələrin də hərəsi bitkin bir hekayə təsiri bağışlayır, onların ardıcıllığı və bağlılığı "Novıy mir"də çapından dərhal sonra dünya ədəbiyyatının nadir incisinə çevrilən bu əsəri bütövləşdirir, tamamlayır. Nodar Dumbadzenin "Əbədilik qanunu" əsərindəki Baçana Ramişvilinin həyatı ilə bağlı ayrı-ayrı epizodların da hərəsinin

bütöv bir hekayə təsiri bağışladığını, romanın məhz bu hekayələrdən hörüldüyünü də xatırlasaq həmin formanın son dövrdə qazandığı populyarlığın səbəbi bizə az-çox aydın olar.

V.Astafyevin insanı təbiətlə yenidən birləşməyə çağıran "Şah balıq" ("Царь-рыба") əsəri pritçalar kompleksi şəklində qurulmuşdur. Yazıçının yaxşı mənada sərbəstliyi, ənənəvi janr formasından qaçmaq bacarığı bu əsər ətrafında yaranan mübahisələrdə bir sıra elmi həqiqətləri üzə çıxardı, stereotip fikirləri qırdı.

Yaxud, Eston yazıçısı P.Kuusberqin "Yağış damcıları" kimi roman-retrospeksiyası, kiçik bir əsərdə bir neçə tarixi dövrü əks etdirən M.Traatın əsərləri, O.Qonçarın "Drujba narodov" jurnalında çap olunmuş "Sənin şəfəqin" romanı. Bu romanlar da, hər şeydən əvvəl, özünün yeni kompozisiya axtarışları ilə diqqəti cəlb edir. Lakin İ.Əfəndiyevin romanındakı başlıca fərq bu ayrı-ayrı hekayələrin personaj eyniliyində, zamanın yüksələn xətlə inkişafında, tarixi faktların dəqiq düzümündə və bir də əsas obrazların axıradək izlənməsindədir. İ.Əfəndiyev üslubuna xas olan lirik-psixoloji təhkiyə burada da özünü göstərir. Ümumiyyətlə, maraqlı poetikaya malik olan bu roman da yazıçının bir çox əsərlərində olduğu kimi, birinci şəxsin dilindən söylənilir. Ədəbiyyatda bu üslubun etiraz doğurduğu vaxtlar çox olub. Lakin əslində elə İ.Əfəndiyev yaradıcılığında yüksək zirvəyə qalxmış və 60-70-ci illər qabaqcıl nəsrimizin ən yaxşı nümunələrində özünü doğrultmuş bu üslub insan psixologiyasının ən dərin qatlarını açmaq baxımından maraqlıdır. İ.Əfəndiyevdən sonra gələn nəslin - Ə.Əylislinin, Anarın, M.İbrahimbəyovun, Elçinin və başqalarının nəsrində obrazların psixoloji tərəflərinin dəqiq, səmimi açılışı həm də bu orijinal üslubla bağlıdır. "Geriyə baxma, qoca!"da "ədib hadisələrin tarixini çox uzaqdan başlayır, babalar haqda nağılları da özü barədə" kədərli hekayə ilə birləşdirir".

Romanda nəsil davamı, nəsillərin bir-birini əvəz etməsi prosesindəki dəyişikliklər, zaman və onunla bağlı hadisələr ustalıqla qələmə alınır. Bu nəsil davamındakı mübarizələr, münaqişələrin özündə el davamı, gəlimli-gedimli dünyanın irəliyə gedən, yaxşılığa gedən davamı balaca Muradın hisslərində, düşüncələrində verilir. Onun özünün inkişafı, ətrafındakılardan seçilərək daim gözəlliyə can atması, pislikdən, şərdən məyus olması, hətta bir çox hallarda zalım dayısına, etinasız atasına qarşı çıxması, insanların taleyini uğursuzlaşdıran zamanın özünə üsyanı kimi momentlər təzə nəslin yeniləşən dünyaya münasibətini üzə çıxarır.

Azərbaycan xalq ədəbiyyatında qaçaqlıq - varlıların zülmünə qarşı üsyan rəmzi kimi həmişə rəğbətlə qələmə alınıb. Qaçaq Nəbi ilə, Qaçaq Kərəmlə dastanlaşan, haradasa çox vaxt məzlumların xilaskarına çevrilən qaçaqlığın ikili xarakteri romanda dəqiq açılmışdır: çar hökuməti dövründə məzlumları müdafiəyə qalxan Sovet hakimiyyətini ilk illər başa düşmədilər, dağlardan, meşələrdən çəkilməyə cəsarət etmədilər. İndi də Azərbaycanda prototipləri yaşlıların yaddaşında yaxşı qalan bu adamların obrazları romanda ustalıqla, tarixi dəqiqliklə yaradılmışdır. Tarixi dövrü, tarixi dönüş nöqtələrini yaxşı bilən, Arazboyu ellərin, Arazboyu kəndlərin milli xüsusiyyətlərinə dərindən bələd olan yazıçı bu baxımdan da ustalığını göstərə bilmişdir.

"Geriyə baxma, qoca!" romanının mübahisəyə səbəb ola biləcək tərəfləri də var. Əsərdə təsvir olunan kəndlər, obalar, Arazboyu ilə bağlı yerlərin bir çoxu dəqiq ünvanı ilə, onun personajlarının əksəriyyəti öz prototipləri, ya da birbaşa dəqiq adları ilə verilmişdir. Bu kəndlərə, bu yerlərə, bu obrazlara babaların talelərinə bələd oxucuda etiraz doğuran nöqtələr, gerçəkliklə bədii həqiqət arasında boşluq yarada biləcək momentlər varmı əsərdə? Yəqin ki, böyük bir tarixi epoxanın bədii təsvirini verən və roman deyilən iri bir əsərdə belə nöqtələr, belə momentlər olacaqdır. Lakin bu nöqtələrin dəyişilmə, real gerçəklikdən aralanma halları, müəllif konsepsiyası ilə, bədii sənət anlayışının qanunauyğunluğu ilə bağlıdır.

Romanın bitib-bitməməsi ətrafında da mübahisə oldu. Tarixin böyük, keşməkeşli, şahidi olduğu çətin bir dövrünü öz uşaq təfəkküründən süzgəcindən keçirib nağıl edən Muradın şirin hekayəti sanki birdən-birə yarımçıq kəsilir. Ancaq, bizcə, bu zahiri yarımçıqlıqdır. Necə ki, Murad özündən əvvəlki bir çox nəslin qısa tarixini söyləyə bilmək bacarığına malikdir, eləcə də biz onun sonrakı nəsillər barədəki xatirələrinin dəqiqliyinə şübhə etmirik. Müəllif oxucuya çatdırmaq istədiyi tarixi dövrü məhz bu nöqtədə bitmiş hesab edir, bəlkə də, roman tipologiyanın birinci kitabının sonu kimi oxucuya sonrakı kitabların, balaca Muradın ömür yolunun davamını vəd edir. Məhz bu mənada yazıçının

bu əsərdən dərhal sonra qələmə aldığı "Üçatılan" povesti diqqəti cəlb edir. Çünki həmin məqam məhz povest janrını qabağa çəkir.

"Üçatılan" povesti "Geriyə baxma, qoca!" romanının məntiqi davamıdır. "20-30-cu illərin Azərbaycan kəndində baş verən hadisələrə müasirliyin daha mürəkkəb sosial-tarixi və mənəvi məişət problematikası baxımından nəzər salması "Üçatılan" povestini "Geriyə baxma, qoca!" romanının təbii davamına çevirir". Romanda bir nəslin inqilabi mübarizə illərindəki yeri, mövqeyi, azadlıq uğrunda çarpışmalarda Arazboyu obaların kədəri, sevinci təsvir edilmişdir. "Üçatılan" povesti isə bu ölümdirim mübarizəsində qələbə çalmış xalqın ən adi nümayəndələrinin təzə həyata, hələ öyrəşməyə çətinlik çəkdiyi dünyaya münasibətini üzə çıxarır. Xalqın bu labüd tarixi keçid mərhələsini yazıçı lirik-psixoloji nəsrin maksimum imkanları səviyyəsində söz sənətinə çevirmişdir. Yazıçı iki gəncin məhəbbəti fonunda dövrün tablosunu yaratmışdır. Bu tablonun maraqlı cəhəti orasındadır ki, onun boyalarında, çalarlarında saxta nöqtə yoxdur. İ.Əfəndiyev nəsrinin dəqiq elmə məxsus struktur bənzərliyi burada da özünü göstərir. Hiss edirsən ki, əsərin aparıcı obrazlarının təsvirində dialoqlarda, müəllif remarklarında, konfliktin inkişafında heç bir saxtalıq, heç bir kənar diktə, kənar not yoxdur. Kollektivləşmə uğrunda gedən mübarizədə müəllif özü bölgü aparmır, özü tərəfkeşlik, qahmarlıq eləmir. Obrazların, situasiyaların, hadisələrin arxasındakı təbii və inandırıcı təsvir içində oxucu özü adamların istiqamətini, ideallarını dəqiqləşdirir, qruplaşdırır və nəticəyə gəlir.

F.Eyvazlının qaçaq Kərəmə həsr etdiyi povesti də tarixi nəsrin yaxşı nümunəsidir. Çünki "Kərəm meydanı" povestinin "əsas məziyyəti - tarixi reallıq hissidir". Bu əsəri geniş tədqiq etmiş tənqidçi A.Hüseynovun göstərdiyi kimi, povestdə müəllifin sənədlərə, tarixi faktlara istinadını elə mətndə açıq görmək olur. Müəllif el-obanın dastan dilində, nağıl xatirələrində yığılıb qalmış hadisələrlə kifayətlənməyib, Tiflis, Gəncə kimi şəhərlərin arxiv mənbələrini bədii fakta çevirmişdir. Professor Qulu Xəlilov düzgün qeyd edir ki, Fərman Eyvazlı "Qaçaq Kərəmin fəaliyyətini, keçdiyi yolu, gördüyü işləri dərindən öyrənmək üçün həmin dövrün ovqatını, tarixi şəraitini, ictimai-siyasi hadisələrini bir yazıçı kimi dərindən öyrənmiş, zəngin material toplaya bilmişdir. Sən demə, Qaçaq Kərəm, onun qəhrəmanlığı, şücaəti haqqında tarixi mənbələrdə xeyli maraqlı fakt varmış".

Adi bir münaqişədən sonra - İsrafil ağa ilə düşmənçilikdən sonra qaçaq düşmüş Kərəmin el-oba, xalq qayğısına qalmaq arzusu əsərdə getdikcə həm də sənədlərin köməyi ilə güclənir. Bu povestin maraqlı cəhəti orasındadır ki, yazıçı bəzi əsərlərdəki ağa-nökər bölgüsünü rədd edərək ağanı da, nökəri də insan kimi, ciddi milli koloriti ilə oxucuya təqdim edir. "Kərəm meydanı" povesti qaçaq mövzusuna münasibət baxımından uğurludur. Məhz ənənəvi mövzuya münasibət yeniliyi... müəllifin düz yol seçdiyini... göstərir. Qaçaq Kərəm haqqında divanxana qərarları, Çar Rusiyasının, yerli idarələrin tədbirləri ilə bağlı sənədlər povestin maraqlı çıxmasına, müəllifin tarixiliyə sədaqətinə çox kömək etmişdir. Ağanın da, nökərin də, kəndlinin də, qaçağın da insan kimi təqdim edilməsi Azərbaycan nəsrində bir ədəbi məktəb kimi, əlbəttə, İ.Şıxlının "Dəli Kür" romanından başlayır. Ağadır-əclafdır, nökərdir-mübarizdir və əsl insandır - kimi qeyri-real, sinfi mövqedən uzaqlaşan "Dəli Kür" tarixə və milli obraza obyektiv münasibət mənasında əsl məktəb səviyyəsinə yüksəldi. Və bu romandan sonrakı bədii nəsr həmin mövqedən çıxış etməyə başladı. Bu baxımdan yuxarıda sənədli povest kimi danışdığımız "Labüdlük" əsəri xüsusi maraq doğurur. C.Hüseynovun bu povesti həm də tarixi nəsrin maraq doğuran nümunəsidir. Doğrudan da, "M.F.Axundov dövrü tarixi nəsr üçün çox böyük material verir". Çünki "Azərbaycanın şah və çar tərəfindən ikiyə bölünməsi" məhz bu dövrün hadisəsidir. Digər tərəfdən, öz xalqının tarixində oynayacağı rolu əvvəlcədən dərk edən M.F.Axundovun həyatı da geniş material verir. "M.F.Axundovun şəxsiyyəti və onun ətrafındakı tarixi hadisələr povesti real faktlarla zənginləşdirir". Öz qəhrəmanının inqilabi baxışlarının formalaşmasını xüsusi xətlə izləyən müəllif həm də bu xətt boyu tarixi prosesi, bu prosesdəki hadisələri qiymətləndirir. Həm də burada Rusiyadakı tarixi hadisələrin Azərbaycan tarixinə təsiri konteksti xüsusi diqqət mərkəzində durur. Əsərdə ikinci xətt kimi təsvir olunan Şah Abbas və I Nikolay paralelləri milli tariximizin təkamülü cəhətdən maraqlı təsir bağışlayır. Povestdə "olmuşlar və olacaqlar vahid xətt üzrə yerləşdirilir ki, bu da Axundovun müəllif üçün tarixə çevrilmə faktı ilə bağlıdır". Və bu tarixin bədii sözdəki gücü oxucuya ömrü necə başa vurmağı, kişi kimi yaşamağı öyrədir.

Yuxarıda inqilabi-tarixi keçmişə həsr olunan nəsrin, adətən ideoloji kanonlardan çətin çıxa bildiyini demişdik. 1960-90-cı illər povestimizdə ideoloji üstünlüyün öz yerini getdikcə sənətə, həqiqətə verməyə başladığı tənqiddə xüsusi qeyd edilir. Bu qəbildən olan povestlər içərisində Fərman Kərimzadənin "Qarlı aşırım" əsəri də xüsusi maraq doğurur. "Ona görə ki... bu əsər inqilabi tarixi keçmişə həsr olunan... bədii nümunə kimi seçilir". Y.Qarayev bu əsəri məhz özündən əvvəlki eyni mövzuda tarixi əsərlərə münasibətdə "yeganə bədii nümunə" hesab edir. Axı "eyni problemə həsr olunan bədii əsərlər otuz-əllinci illərdə necə qurulurdu. Əsas vurğu surətlərin davranış və rəftar tərzinin yalnız sosial və sinfi səbəblərlə şərtləşməsi üzərində cəm olunurdu". Fərdi psixologiya sinfi şüurla bərabərləşdirilirdi.

F.Kərimzadənin povestində isə tarixin və bu tarixdə fərdin həqiqət işığında təsvir olunduğunu tənqid ayrıca qeyd etdi. Kərbəlayı İsmayıl mülkədardır, el ağsaqqalıdır. M.İbrahimovdan tutmuş Əbülhəsənədək nəsrimizdə bu dövrə qədər mülkədarın əsl insan obrazına rast gəlmirik. "Qarlı aşırım" povestindəki Kərbəlayı kollektivləşməyə müharibə elan edir", lakin belə bir adama el məhəbbəti, hətta yeni hökumət nümayəndələrinin belə hörməti var. Bu, obyektiv tarixi-psixoloji zamanın, milli keyfiyyətin ifadəsidir.

Burada əsilzadə mənşəyindən olub bolşeviklərin tərəfinə keçmiş Abasqulu bəy də, beləcə təmkini, milli özünəməxsusluğu ilə xüsusi rəğbət doğurur. Bundan əvvəlki əsərlərdə kollektivləşməyə elliklə sevinən xalqın burada həmin məsələyə münasibəti ikilidir, tarixi-siyasi dövr və fikirlər baxımından düzgün verilmişdir. Bu siyasi dövrün yalnız sinfi, yalnız ideoloji, yalnız hakim dairələrin istəyinə uyğun təsviri M.Şoloxov kimi böyük nasirin "Oyanmış torpağ"ını, D.Furmanovun "Dəmir axını"nı, S.Rəhimovun "Şamo"sunu, M.Hüseynin "Səhər"ini, M.İbrahimovun "Gələcək gün"ünü, B.Bayramovun "Fəhlə qardaş"ını, C.Cabbarlının "Almas", "Sevil", "Yaşar", "Dönüş" əsərlərini bu gün qaçılmaz bir şübhə altına almışdır. Bədii yaradıcılığın bu acı dərsi F.Kərimzadə kimi sənətkarların üslubunu müəyyənləşdirdi. Və ona görə də "Qarlı aşırım" povesti öz obyektiv mövqeyi ilə ömür qazandı.

Y.Qarayev bu povest haqqında ayrıca danışanda qeyd edir ki, insan tarixdə yaşayır, onu mühit qoynuna alıb aparır, lakin, o, passiv deyil. Passivliyi yalnız ona aşılayırlar, yaxud da (yəqin ki, daxili rahatlıq və arxayınlığı üçün, "baş ağrımaması" üçün) passivliyi insan özü özünə aşılayır, süni şəkildə özünü köməksiz təsəvvür edir. Qəmlonun və əlaltılarının xəncərindən qorxmayan kəndli cavanların igidliyi bu baxımdan simvolikdir. Kərbəlayı səltənəti uçub-dağılır. Tarix onun taleyini həll edib. Lakin bununla belə, bu qaçılmaz prosesin povestdəki təhlilinin və təsvirinin ləng, təmkinli üsulu müəllif tərəfindən çox dəqiq tapılmışdır. Daha doğrusu, o, şüurun, psixologiyanın, qarşılıqlı zorakılığa qarşı kinin və müqavimətin ləng, təfsilatlı ifadəsini qələmə alır. Belə ki, Kərbəlayı İsmayılın, onun kimi əlavə qanlara səbəb olan digər inadkarların, mənasız mübarizə və müqavimət fədailərinin taleyinin necə olacağını tarixdən biz yaxşı bilirik. Bizim üçün bu gün daha maraqlı olan isə budur ki, görək onların əlaltıları, namus və sədaqətlə mülkədarların xidmətində dayananlar dəyişən tarixi modelin mövcud "maqnit sahəsindən", həmin sosial münasibətlərin əvvəlki sehrindən və cazibəsindən tədriclə necə kənara çıxırlar.

"Məhz bu mənada povest, elə bil, tarixi mövzunun yeni imkanlarını üzə çıxarır və göstərir ki, bu gün zamanca bizdən çox uzaq olan tarixi nəsrimiz də, əhatə edildiyimiz ən yeni həyat materialı ilə işləyən, müasir mövzulu nəsr də eyni, müştərək problemlərlə məşğuldurlar.

Tarixi nəsri də müasir mənəvi axtarışlardan, yeni əxlaq və şəxsiyyət konsepsiyasından kənarda təsəvvür etmək mümkün deyildir (əlbəttə, belə bir şərtlə ki, bu zaman müasirliklə tarixin dialoqu kimi yaranan tarixi təhkiyəyə xas məxsusilik qorunub saxlanmış olsun)".

Müasir rus povestində Böyük Vətən müharibəsi mövzusu tarixi keçmişin təsviri işində mühüm yer tutur. Y.Bondarev, V.Astafyev, F.Abramov Y.Nagibin və s. yazıçıların əsas yaradıcılığı müharibə dövrü Rusiyanın cəbhə və arxa həyatı ilə bağlıdır. Müasir dövrümüzdə rus-alman müharibəsi kimi adlandırdığımız bu savaş dünyanın bir çox nəsrində ikinci dünya savaşı səviyyəsində qələmə alınır. Müasir İtalyan romanının, macar, alman, rumın, bolqar povestlərinin də aparıcı tarixi mövzularından biri müharibədir. Lap elə "40-cı illərin sonundan İtaliyada dəbə düşən antifaşist povestlər 60-cı illərdə də bu ölkənin yazıçılarının yaradıcılığında geniş yer tutur". Bu dövrün roman və povestləri xatirələr əsasında qurulurdu. Rus povestlərində də bu üslub güclüdür. Müharibənin ən acı faktları ilə qarşılaşan rus, Ukrayna, Pribaltika, belarus yazıçıları öz povestləri ilə bu dövrün portretini yaratmışlar.

"Bu əsərlərin əksəriyyətində insan və müharibə problemi, müharibədə insanın yeri və davranışı əsas təsvir obyektidir. Bu əsərlərdə təkcə tarixin dərsləri deyil, həm də gələcəyin dərsləri var".

Bəzən müharibənin birbaşa getmədiyi bölgələri müharibədə görməmək meylləri də var. Lakin, məsələn, Azərbaycanda müharibə bilavasitə getməsə də, xalqımız onun bütün ağırlıqlarını öz çiynində daşıyıb. İ.Hüseynovun, İ.Şıxlının, B.Bayramovun povestləri bu tarixi dövrə aid bədii salnamə təsiri bağışlayır. Bu yazıçıların əsərlərində müharibə dövrü Azərbaycan kəndinin tarixi var.

Müharibə dövrü Bakı həyatı da 60-90-cı illər nəsrinin maraqlı tematikasına daxildir. Əslində, "müharibə dövrü arxa cəbhənin həyatı 60-cı illərdə ədəbiyyata gələn gənc nəslin uşaqlıq xatirələrində güclü ifadə edilirdi. M.İbrahimovun "Əlvida, miledi!", "Müharibənin 1001-ci gecəsi" povestlərində müharibə dövrü Bakısı öz ifadəsini tapmışdır. Bu əsərlərin hamısında bir şəhərin timsalında bütöv xalqın müharibə dövrü problemləri əks olunub.

İ.Hüseynovun "Saz" povestində müharibəyə iki oğul yola salmış İsfəndiyar kişinin faciəsi, ümumxalq faciəsi kimi qələmə alınır. "Saz" və "Tütək səsi" povestlərində İ.Hüseynov insan və müharibə probleminin güclü bədii həllini verə bilmişdir.

60-70-ci illər Azərbaycan povesti özünün tematika zənginliyinə görə çox böyük tarixi əhəmiyyət kəsb edir. Özündən bir az əvvəlki nəsrin bir çox sırf vulqar-sosioloji, ideoloji kanonlarını qırmağa nail olan bu dövrün yeni nəsri (dırnaqsız) öz tematikası və mövzuya yeni münasibəti ilə yadda qalır. "Altmış-yetmişinci illərdə gənclər nəsrə dəstə ilə gəldilər və məcbur elədilər ki, həm oxucu, həm də ədəbi-elmi-estetik fikir öz diqqət və marağını onlarla cəmləşdirsin. "Yeni Azərbaycan nəsri", "yeni dalğa" ifadələrini də bizim cari leksikona elə onlar daxil elədilər". Bu yeni nasirlər nəsrdə, xüsusilə povest janrı ilə aparıcı oldular. Onlar nəsrə hər şeydən əvvəl yeni mövzularla gəldilər.

Nəticə. Yuxarıda tədqiq etməyə çalışdığımız həmin tematikanı ümumiləşdirsək, belə bir nəticəyə gələrik:

1. 1960-90-cı illər Azərbaycan povestində sosial-mənəvi problemlər aparıcı mövzu olmuşdur. Bütün vasitələri və gücü ilə sovet senzura aparatına müqavimət bu nəsrin Anar, Elçin, S.Əhmədov, İ.Məlikzadə, M.Süleymanlı, S.Azəri, F.Kərimzadə, M.İbrahimbəyov, Y.Səmədoğlu və s. kimi yeni nümayəndələrin yaradıcılıq manerasına çevrilmişdir.

2. Azərbaycan nəsrinin 1960-90-cı illər povestləri neqativ hallara qarşı mübarizə, insanın bu mübarizədəki yeri, faciələri doğuran səbəblər barədə geniş bədii tədqiqat aparmışdır.

3. Müasir Azərbaycan povestlərində məişət və insanın həyat tərzi fonunda adi insanın diqqət mərkəzinə gəlməsi, ədəbiyyatın tədqiqat obyektinə çevrilməsi prosesi xüsusi nəzərə çarpır.

4. 1960-90-cı illər dünya nəsrinin inkişaf meylində olan kəndə yeni münasibət Azərbaycan nəsrinin də aparıcı mövzusu olmuşdur. Ölüb getməkdə olan xalq adət-ənənələri, kəndin qoruyub saxladığı psixoloji qatların aşkarlanması, kəndlə bağlı ekologiya problemləri bu nəsrin qaldırdığı məsələlər sırasındadır.

5. Azərbaycan povesti son onilliklərdə xalqın tarixi keçmişini xüsusi mövzu kimi diqqət mərkəzində saxlamışdır.

Bütün bu mövzular həm də əvvəlki sırf ideoloji çərçivələri aşaraq insanı insan kimi, tarixi tarix kimi göstərməyi əsas götürmüş və bir çox hallarda buna nail olmuşdur.

ƏDƏBİYYAT

1. Axundov Y. Azərbaycan sovet tarixi romanı. / Y.Axundov. - Bakı: Yazıçı, - 1979. - 138 s.
2. Əfəndiyev İ. "Geriyə baxma, qoca!" // Əsərləri: [4-cü cild] /İ.Əfəndiyev. -Bakı: Yazıçı, -1985. -279s.
3. Hüseynov T. Ədəbiyyatla yaşayıram. / T. Hüseynov. - Bakı: Azərnəşr, - 1993, 258 s.
4. Hüseynov A. Sənət meyarı. / A.Hüseynov. - Bakı: Yazıçı, - 1986. -151s.
5. Hüseynov A. Nəsrimiz və keçmişimiz. // Bakı: Azərbaycan jurnalı, N-9, 1981, s. 177
6. Xəlilov Q. "Tənqidçilik çətin peşədir"./ Q. Xəlilov. - Bakı: Yazıçı, - 1986. 122 s.
7. Qaraev Y. Müasirliyin sabitliyi. İ.Əfəndiyevin Seçilmiş əsərləri [6 cilddə] /ön söz./ Bakı: 1984. 285s.
8. M. Hüseyn Əsərləri. /10 cilddə: [9-cu cild]. / Bakı: - Azərnəşr, - 1979, s. 201, 202 s.
9. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. /Ə.Mirəhmədov. - Bakı: Yazıçı, - 1980.
10. Владимир Илич Ленин./ Биография. Москва: - 1981
11. А. Былое и думы. / А. Герцен. - Москва: Наука, - 1982, 583 с.

12. Либединская Л. С того берега. / Л.Либединская. -Москва: Политиздат, -1980, с185
13. Новиков В.В. Историзм литературы и искусства нового мира. "Проблема историзма в русской советской литературе 60-80-е годы" Москва: Наука. -1986, 262 с.
14. Петров С. Русский советский исторический роман. /С. Петров. - Москва: Современник. - 1980, 416 с.
15. Протченко В.И. Повесть 60-х, начало 70-х годов. "Современная русская советская повесть"/ В.И.Протченко. -Москва: Наука, -1975, 264 с.
16. Рыленков Н. Повести и рассказы. / Н.Рыленков. - Москва: Художественная литература, - 1969, 439с.
17. Шукшин В. Я пришел дать вам волю. /В. Шукшин. - Москва: Азбука, -1972. 480 с.
18. Шагинян М. Лениниана./ М. Шагинян. - Москва: 1977, 816 с.

ДЖАХАНГИР МАММАДОВ
Профессор Бакинского государственного университета

ИСТОРИЧЕСКОЕ ПРОШЛОЕ НАРОДА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

В статье анализируются образцы нашей прозы 1960–1990-х годов, составляющие особый этап в развитии азербайджанской литературы. Основная тема статьи - отражение исторического прошлого народа в творчестве писателей данного периода. В этой связи проводится анализ художественных произведений, обращаясь к примерам мировой прозы. Особое внимание уделяется произведениям писателей, творивших в Азербайджане во второй половине XX века, представителям новых литературных течений, а также анализу их произведений на историческую тему в контексте литературы союзных республик Советского Союза.

Раздел статьи посвящён также новым этапам развития, сформировавшимся под влиянием писателей XIX века - представителей таких литературных школ, как М.Ф.Ахундзаде, Ю.В.Чаманзаминли, М.С.Ордубади, - и продолжавших их традиции писателей поколения «шестидесятников».

Ключевые слова: историческое прошлое, художественное произведение, жанр, проза, шестидесятники, писатель, творчество, тема, литература, развитие, роман, история

CAHANGIR MAMMADOV
Professor of Baku Sate University

THE HISTORICAL PAST OF THE PEOPLE IN MODERN AZERBAIJANI LITERATURE

The article calls to the analysis of the example's of 1960-1990s, which played special role in the development of Azerbaijani literature. The main topic of the article consists of the works of master authors of our nation's history. Literary works on this topic are recommended in the world prose examples. Especially, in the second half of last century, the works of creators of the new literary trend that appeared in Azerbaijan were analyzed in the fund of works of writers of past Soviet Union republic. The basis of the article consists of examples of the new development stage of the sixties prose literary schools of creators, writers of the first half of 19th century, like M.F Axundzade, Y.V Cemenzeminli, M.S Ordubadi.

Keywords: historical past, literary work, genre, prose, sixties, writer, work, creativity, topic, literature, development, roman, history.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. İbrahim Zeynalov.